*Akademik Tarih ve Düşünce Dergisi* *Academic Journal of History and Idea*
*ISSN: 2148-2292*
*10 (1) 2023*
*https://doi.org/ 10.46868/atdd.2023.*




*Araştırma Makalesi | Research Article*
*Geliş tarihi |Received : 09.07.2023*
*Kabul tarihi |Accepted: 25.07.2023*
*Yayın tarihi |Published : 25.08.2023*



**Zümrüd Mənsimova**

*https://orcid.org/0000-0002-8529-9018*
*Office of the Presidium of the Azerbaijan National Academy of Sciences, scientific secretary of the Department of Social Sciences, doctor of philosophy in philology, associate professor, Azerbaijan, zumrudibrahimqızı@gmail.com*

***Atıf Künyesi | Citation Info***
Mənsimova, Z. (2023). Heydər Əliyevin Xarici Siyasəti və Azərbaycanın Beynəlxalq Uğurları. *Akademik Tarih ve Düşünce Dergisi, Azerbaycan Halkının Milli Lideri Haydar Alirza Oğlu Aliyev'in Doğumunun 100. Yılı Özel Sayısı, 10* (1), 122-130.

# Heydər Əliyev İrsində Milli-Mənəvi Dəyərlər Kontekstində Folklor Faktoru

***Xülasə***

*Qədim tarixə malik Azərbaycan xalqının dahi şəxsiyyəti, Ulu öndərimiz Heydər Əliyev uzun onillikləri əhatə edən siyasi fəaliyyəti dövründə Azərbaycan milli-mənəvi dəyərlərinə və həmçinin rəngarəng folklorumuza, xalq yaradıcılığımıza, habelə dərin millilik kəsb edən tarixi mirasımız "Dədə Qorqud", Manas", "Koroğlu" dastanlarına daim xüsusi diqqət və qayğı göstərmiş, bu taixyüklü məsələni idarəetmə strategiyasında ön planda saxlamış, bu qiymətli irsin qorunmasına beynəlxalq*

*səviyyədə tanınmasına çalışmışdır. Ulu öndər Heydər Əliyev xalqın bayram və mərasimlərində iştirak edər, adət-ənənələrimizin - mənəvi tariximizin unudulmaması üçün mühim siyasi qərarlalr əbul edərdi. Məsələn, 1999-cu ildə YUNESKO-nun xətti ilə "Kitabi Dədə Qorqud" dastanının 1300 illiyinə həsr olunmuş beynəlxalq simpoziumun Azərbaycanda keçirilməsi haqqında Dövlət Fərmanı Ulu öndər Heydər Əliyevin milli-mənəvi dəyərlərimizə bir siyasi Lider və həm də vətəndaş münasibətini ifadə edir. Bütövlükdə Heydər Əliyevin milli-mənəvi dəyərlərimizlə bağlı qərarları, fərmanları və bu rəsmi sənədlərin icrasında şəxsən iştirakı həmişə aktualdır. Heç də təsadüfi deyil ki, ayrıca bu tədqiqat mövzusu alimlərimiz tərəfindən fundamental əsərlərlə tədqiq olunub qiymətləndirilmişdir. Bu məqalə də həmişə öz yeniliyini və əhəmiyyəti ilə maraq doğuran Ümummilli Lideri Heydər Əliyevin zəngin irsində milli-mənəvi dəyərlər məsələsinin təhlilinə həsr olunub. Müəllif Ulu öndər Heydər Əliyevin folklorumuza, şifahi xalq ədəbiyyatımıza, el sənətkarlarına münasibət məsələsini*

***Açar sözlər:*** *Azərbaycan, Heydər Əliyev, milli-mənəvi dəyərlər, folklor, ədəbiyyat*

# The Folklore Factor in the Context of National Spiritual Values in Hayder Alıyev's Heritage

***Abstract***

*The great personality of the Azerbaijani people with an ancient history, great leader Heydar Aliyev, during his decades-long political activity, contributed to the national and moral values of Azerbaijan, as well as to our colorful folklore, folk art, as well as our deeply national historical heritage "Dade Gorgud", "Manas", "Koroglu". always paid special attention and care to his epics, kept this pressing issue at the forefront of his management strategy, tried to protect this valuable heritage at the international level. The great leader Heydar Aliyev would take part in public holidays and ceremonies, make important political decisions so that our traditions and spiritual history would not be forgotten. For example, in 1999, the State Decree on the holding of an international symposium in Azerbaijan dedicated to the 1300th anniversary of the epic "Kitabi Deda Gorgud" by the line of UNESCO expresses the attitude of the great leader Heydar Aliyev to our national and moral values as a political leader and a citizen. As a whole, Heydar Aliyev's decisions and decrees related to our national and moral values and his personal participation in the implementation of these official documents are always relevant. It is no coincidence that this research topic has been studied and evaluated by our scientists with fundamental works. This article is also dedicated to the analysis of the issue of national and moral values in the rich heritage of the National Leader Heydar Aliyev, which always arouses interest with its novelty and importance. The author discusses the attitude of the great leader Heydar Aliyev to our folklore, oral folk literature, and handicrafts*

***Keywords:*** *Azerbaijan, Heydar Aliyev, national and moral values, folklore, literature*

**Giriş**

Yurduna bağlıydı eşqi, həyatı,
Azad Azərbaycandı onun muradı,
Elin sərkərdəsi, xalqın nicatı,
Yenilməz qüdrətdi, Heydər babamız!
(Aşıq Mahmud)

Bir xalqı, bir dövləti ilk öncə onun gücüylə, milli-mənəvi dəyərləri, mədəniyyəti, folkloru, ədəbiyyatı, hansı genetik kökə, etnosa bağlı olması ilə vətənə, xalqa xidmət edən liderləri, tarixi keçmişi ilə tanıyırlar. Azərbaycan xalqı əsirlər boyu Cavanşir, Babək, Şəmsəddin Eldəniz, Qızıl Arslan, Uzun Həsən, Şah İsmayıl Xətai, Heydər Əliyev və başqaları kimi böyük şəxsiyyətlər, siyasi dövlət xadimləri, liderlər yetişdirmişdir. Bu siyasi liderlər hər zaman əcdadlarımızdan bizlərə miras qalan torpaqlarımızın bütövlüyünü qorumuş, yadelli işğalçılara qarşı kəskin mübarizə aparmış, böyük siyasət həyata keçirmişlər. Hər tarixi şəxsiyyət öz zamanının tarixini yazmışdır. Filosof alim Qoşqar Əliyev qeyd edir: “Hər bir ölkənin tarixi onun xalqının bioqrafiyasıdır” (Əliyev, Qismət, 2003). Azərbaycanın Ümummilli Lideri Heydər Əliyev tarixi keçmişimizə, milli-mənəvi dəyərlərimizə, qədim adətlərimizə, ədəbiyyatımıza çox böyük önəm verən böyük düşüncəyə malik siyasətçi olmuş, eləcə də tarixi irsimizə xüsusi diqqət və hörmətlə yanaşan dövlət xadimi olmuşdur. Bütün bunlar dahi şəxsiyyətin söz, fikir və əməllərində özünü yüksək şəkildə ortaya qoyur. Bu məqalədə Ulu Öndər Heydər Əliyevin çıxışlarında, müsahibələrində yer tutan millilik məsələsi, milli mənəvi dəyərlərə, folklorumuza, dilimizə, dinimizə, ata-babalarımızın, əcdadlarımızın bizə miras qoyduqları ənənələrə, saz və söz adamlarına və s. verdiyi dəyər, göstərdiyi münasibətdən söz açmağı əsas bilirik. Heydər Əliyevin yürütdüyü müdrik, uzaqgörən siyasəti, xalqı düşdüyü çətin vəziyyətdən çıxarmaq bacarığı onun kiçik mənada elin, böyük mənada xalqın atası və xilaskarı səviyyəsinə kimi yüksəltmişdir. Bu baxımdan yanaşdıqda Ulu Öndərin qazandığı müdriklik, ağsaqqalıq statusu onun əcdad – ata kultu səviyyəsinə yüksətməyə əsas verir. Ulu Öndər çıxışlarında milli dəyərlərimizin qorunmasına, layqincə təbliğ edilməsinə hər zaman böyük önəm vermişdir. Ətrafında olan hər kəsi bu dəyərlərə sahib çıxmağa, özümüzünkü olanı özgələşməyə izn verməmişdir. Ulu babalarımızdan bizə gəlib çatan bütün ənənələr bizim və gələcək nəsillərin həyatında yer almalı və yaşamalıdır. Düşünürəm ki, düşmənlərimizin önünə tarixi kimliyimizi düzgün bilib yaşatmaqla, təbliğ etməklə çıxa bilərik. Çünki tarixi keçmişimiz, milli kimliyimiz, nəsil və

şəcərə soy-kök, etnik mənsubiyyət məsələsi bizlərə milli pasportumuz kimi gərəkli olmalıdır. Ulu Öndər Heydər Əliyevi müdrik siyasətçi adlandıran filosof alim Xatirə Quliyeva qeyd edir: "Millilik hissi, milli mənəvi dəyərlərə diqqət və qayğısı Heydər Əliyev xarakterinin və siyasi idarəçilik məktəbinin ən mühüm təlimlərindən biri olaraq təcrübədə təsdiqlənmiş və tarixə iz salmışdır. Heydər Əliyev müdrik siyasi idarəçilik sistemində ən əsas proqram isə sözsüzdür ki, millilik, tarixilik, xalq, onun keçmişi, gələcəyi, yeraltı və yerüstü sərvətləri qarışıq bütün milli varlığı cəmlənən Azərbaycançılıq ideyası idi" (Quliyeva, 2021). Tarix boyu ulu babalarımızın keçdikləri yola diqqət etsək görərik ki, onlar ağır sınaqlardan çıxmış, özlərinəməxsus inam və inanc tərzləri olmuşdur. Böyük və əzəmətli xalq əsrlər boyu hücumlara məruz qalsa belə öz yollarını, adətlərini kimsəyə qurban etməmişlər. Tarixi Azərbaycan ərazisində əsrlər boyu Sasanilərin, Səlcuqların Ərəb Xilafətinin Moğolların, Çar Rusiyasının, Sovet imperiyasının və başqaların hakimiyyəti altında olsa da öz milli kimliyini əsla başqasının boyunduruğuna çevirməmişdir. Azərbaycanda tarix boyu Aratta, Lullubi, Kuti, Manna, Midiya, Atropatena, Albaniya dövlətləri, Əhəmənilər imperiyası mövcud olmuşdur. Bu dövlətlərə qədər də xalqımız müəyyən ibtidai icma dövrünü yaşamış, müəyyən dinlərə inanclara inanmışlar. Fikrimizcə, tarix yalnız dahi və müdrik və uzaqgörən şəxsiyyətlərin, güclü dövlət xadimlərinin nurlu əməlləri sayəsində gələcək nəsillərin yaddaşına həkk olunur. Ulu Öndər Heydər Əliyev vətəni dərin hislərlə sevən vətənpərvərdir, Böyük Azərbaycanlıdır, tarix keçmişimizin mahir bilicisidir. "Keçmişə nəzər salanda aydın olur ki, biz nadir bir irsin varisləriyik. Hər bir Azərbaycan vətəndaşı bu irsə layiq olmağa çalışsa, böyük bir tarixi keçmişi, zəngin mədəniyyəti, yüksək mənəviyyatı olan ölkəmizin həm dünəninə, həm bu günününə, həm də gələcəyinə dərin bir məsuliyyət hissi ilə yanaşılmalıdır. Azərbaycan insanın, bəşəriyyətin beşiyi olan nadir ölkələrdən biridir (Əliyev, 2010).

Azərbaycan tarixini, ədəbiyyatını, coğrafiyasını və dilini dərindən bilən müdrik və uzaqgörən Ümummilli Liderimiz özündə birləşən bu xüsusiyyətləri damarında azərbaycanlı qanı axan hər bir Azərbaycan vətəndaşında, məmurunda olmağı tələb və tövsiyə edirdi. Eyni zamanda xalqı tarix boyu ulu babalarımızdan bizə gəlib çatan maddi-mənəvi irsi qoruyub saxlamağı səsləyirdi. Bu barədə uzaqgörən və müdrük şəxsiyyət Heydər Əliyev demişdir: "Bizim əcdadlarımız ibtidai insanın mədəniyyət sahəsində əldə etdiyi bütün nailiyyətlərdən faydlanaraq, özünəməxsus, zəngin mədəni, mənəvi irs yaratmışlar. Bunu istər Azərbaycan ərazisində arxeoloji qazıntılar nəticəsində tapılmış abidələr, istərsə də bu günümüzə qədər

gəlib çatmış şifahi xalq ədəbiyyatı və yaxud yazılı irsimiz sübut edir. Bunları qorumaq və təbliğ etmək hər kəsin mənəvi borcuna çevrilməlidir” (Əliyev, 2010).

Birmənalı şəkildə demək doğru olar ki, Heydər Əliyevin irsi Azərbaycan xalqının milli sərvətidir. Heydər Əliyev şifahi xalq yaradıcılığına, folklorumuza Azərbaycan xalqının uzaq əsrləri adlayaraq günümüzə gəlib çatan ədəbi-mədəni irsimizə maddi-mədəniyyət abidələrimizə, dilimizə, dinimizə, xalqımızın mili mənəvi dəyərlərinə yüksək önəm verən dahi və əvəzolunmaz şəxsiyyət olmuşdur. O yaxşı bilirdi ki, bir millətin mövcud olmasının özünəməxsusluğunu səciyyələndirən milli-mənəvi dəyərlərin, dilin, şifahi xalq ədəbiyyatının daimi yaşaması üçün dayanıqlığının təmin edilməsi çox vacibdir. Ulu Öndər milli-mənəvi varlığımızın daşınmasında bənzərsiz xidmətləri olan el sənətkarlarına, saz-söz adamlarına, şair və yazıçılara böyük dəyər vermiş, onların yubileylərinin keçirilməsini, fəxri adların verilməsini eləcə də məqamı düşüncə onlarla görüşməyi, problemlərini dinləməyi və həll etməyi özünə bir borc bilmişdir. O bölgələrə səfər etdikcə el sənətkarları ilə görüşmüş, hər zaman sadə xalqın yanında olmuş onların adətlərinə yaşam tərszinə hörmətlə yanaşmışdır.

Akademik İsa Həbibbəyli qeyd edir: “Ədəbiyyata xalqın keşməkeşli taleyinin, tarixi yaddaşının, müasir həyatının və inkişafının əks-sədası kimi baxan Heydər Əliyev bədii düşüncədə tarixilik, millilik və müasirlik prinsiplərinə xüsusi dəyər vermişdir. Bu baxımdan millilik, tarixilik və müasirlik Heydər Əliyevin dövlətçilik təlimində ədəbiyyat siyasətinin əsasını təşkil edir (https://edebiyyat¬qazeti.az/news/sience/10304-heyder-eliyevin-boyuk-edebiyyat-siyaseti). Heydər Əliyev milli mənəvi dəyərlərimizin qorunub saxlamaqla yanaşı, o dəyərlərin öyrənilməsini, dərindən araşdırılmasını və gələcək nəsillərə ötürülməsini, inkişaf etdirilməsini əsas vəzifələrdən biri hesab edirdi. Qeyd edirdi ki, dəyərsiz millət yoxdur. Ulu Öndər gələcəyi görən və duyan xalqını təhlükədən qoruyan xilaskar, Ozan, ağsaqqal idi. Ümummilli Lider özünün çoxsaylı çıxışlarında, nitqlərində, məruzələrində, ilk növbədə, humanist ideyalara ehtiramla yanaşmış, Azərbaycanın milli-mənəvi dəyərlərində, Azərbaycan xalqının adət-ənənələrinə önəm vermiş, ağsaqqala, ağbirçəyə hörmət və ehtiram, gənc nəslin ağsaqqallara, yaşlılara münasibəti, yaşlı nəslin gənc nəslə qayğısı, onlar üçün nümunə olması kimi önəmli məsələlərdən bəhs etmişdir. Bununla bərabər, Heydər Əliyev hər zaman milli dəyərlərlə yanaşı, ümumbəşəri dəyərlərə də hörmət etmişdir.

“Əgər gənclik düzgün enerjiyə, kəskin düşüncəyə, sağlam orqanizmə malikdirsə, bunlara arxalanaraq, yaşlı nəslə hörmət göstərirsə, yaşlı nəsil də bir nümunə mənbəyi olmalıdır, öz hərəkəti, davranışı ilə gənclərə yol göstərməlidir. Bütün bunlar Heydər Əliyev irsində xüsusi

yerlərdən birini tutur" (Mirqasımov, 525-ci qəzet, 2011). Ulu Öndər Heydər Əliyev Azərbaycanı ən qədim insan məskənlərindən biri adlandırmışdır. "Xalqımızın Ulu babalarının yaşadığı tarixi Azərbaycan torpaqları ən qədim sivilizasiyaların yarandığı Xəzər-Aralıq dənizi Fars körfəzi regionlarına daxil idi. Azərbaycan ərazisi bu diyarın dünyanın ən qədim insan məskənlərindən biri olduğunu sübut edən arxeoloji abidələrlə son dərəcə zəngindir" (Hüseynova, 2011). Dahi şəxsiyyət çıxışlarında Oğuz türklərin adətlərini, qayda və qanunlarını əks etdirən Kitabi-Dədə Qorqud dastanını Türk Dünyasının qiymətli bir xəzinəsi adlandırmışdır. Bu da həqiqətdir ki, milli mədəniyyətimizin ən zəngin və qədim qaynaqlarından biri olan bu dastana verilən dəyər Ulu Öndərimizin ümumlikdə Türk dünyasına verdiyi dəyərdir. Tarixi keçmiş, folklor və etnoqrafiya, soy-kök məsələlərinə çox həsas yanaşan Ulu Öndər Heydər Əliyevin"Kitabi-Dədə Qorqud" dastanının 1300 illik yubileyinin YUNESKO səviyyəsində keçirilməsində böyük önəmi olmuşdur. Azərbaycan xalqının qədim tarixini, adətlərini, dəyərlərini özündə ehtiva edən Kitabi-Dədə Qorqud dastanı oğuz türklərinin bir növ tərcümeyi halıdır. Azərbaycan türklərinin etnogenezini, soy kökü, dilini, adət-ənənələrini, qonşu etnoslarla münasibətini, dinini, milli-mənəvi dəyərlərini öyrənmək üçün dəyərli bir mənbədir (Hüseynova, 2011). Ulu Öndərin məktəbini keçən Azərbaycan Respublikasının prezidenti cənab İlham Əliyev də ata vəsiyyətinə sadiq qalaraq torpaqlarımızı işğaldan azad etmək üçün milli maraqlarımıza söykənən həm daxili, həm də xarici siyasət aparır. 44 günlük II Vətən müharibəsində xalqımıza tarixi zəfərin sevincini yaşadır. Eləcə də ata nəsihətinə layiqincə yerinə yetirdi. "Qarabağ Azərbaycanın olub, Azərbaycanın da olacaq". Azərbaycanlılar yatmış aslanlardır, yaxşısı onları oyatmayın! – bəyanatında da əks olunmuş "yatmış aslan" xislətini canlandırdı. "İlham Əliyev ata vəsiyyəti - bu müdrik çağırışında var olan "yatmış aslan" xislətimizi oyandırdı. Beləcə, Heydər Əliyevin "aslan" sözünün məna dərinliyində mərdliyini ifadə etdiyi 100 minlərlə gəncimiz - igid Aslan, Ali Baş Komandan, cənab İlham Əliyevin - XXI əsrin sərkərdəsinin qərarına dərhal səs verərək "Qarabağ Azərbaycandır!", "Ya Qarabağ, Ya ölüm" şüarları ilə küçələrə axışdı (Quliyeva, 2021). Azərbaycan Prezidenti, Ali Baş komandan cənab İlham Əliyevin bu gün xalqa müraciətində bəyan etdiyi - "Bu tarix əbədi yaşayacaq. Bu bizim şanlı qələbəmizin, zəfərimizin günüdür. Bu qələbəni biz döyüş meydanında qazandıq" - sözləri xalqımıza və yeni şəhidlərimizlə bərabər dünyadan Qarabağ həsrəti ilə köçən bütün soydaşlarımızın ruhunu sevindirən bir müjdə oldu (https://qafqazinfo.¬az/news/¬detail/prezident-xalqa-muraciet-edecek-304732). Onun çıxış nitqindən bəzi məqamlara diqqət edək: "Biz əcdadlarımızın yolu ilə getməliyik. Onların ruhlarını həmişə şad etməyə çalışmalıyıq. Azərbaycan xalqının

üstünlüyü ondadır ki, biz öz qədim ənənələrimizə sadiqik: Bu nöqteyi-nəzərdən, hər birimiz üçün onun ailəsi, onun ulu babaları, əcdadları böyük əhəmiyyət kəsb edir. Orada babamın məzarı önündə ürəyimdə dediyim sözləri ola bilsin ki, nə vaxtsa dilə gətirəcəyəm" (https://www.azerbaijan-news.az/az/posts/detail/babamin-mezari-onunde-ureyimde-dediyim-sozleri-ola-bilsin-ki-ne-vaxtsa-dile-getireceyem-1642106926). Əcdadımız tanımaq bilmək və onun qoyduqları ənənələri yaşatmaq üçün bir xalq olaraq hər zaman milli yaddaşa söykənmək gərəklidir. Seyfəddin Rzasoyun qeyd etdiyi kimi, "Folklor xalq ənənəsi kimi etnosun: – inandıqları, etdikləri, yaratdıqları söylədikləridir. Bu ənənənin kökü əcdadlara bağlıdır. Əcdadı bəlli olan xalq müdrük və uzaqgörən xalqdır, böyük tarixi ənənələrə malik xalqdır. Bu ənənələri qorumaq, daim yaşatmaq hər bir azərbaycanlının mənəvi borcudur" (Rzasoy, 2008). Odur ki, hər bir azərbaycanlı əcdadların kim olub, 7 arxa dönənin kim idi suallarına cavablandırmağı özünə borc bilməlidir ki, mənfur düşmən qarşısında üzü ağ, alnı açıq dursun. Heydər Əliyev milli-mənəvi dəyərlərimizin əsas göstəricisi olan milli bayramlarımıza çox böyük önəm vermişdir. Bu bayramı həmişə xalqla birgə qeyd etmişdir. Sovetlər dönəmində Novruzu təntənəli şəkildə qeyd etmək Azərbaycan xalqına qadağa qoyulsa da, Ulu Öndər Heydər Əliyevin Azərbaycan və azərbaycanlılar qarşısındakı xidmətləri sırasında Novruzun yenidən xalqımıza qaytarılması kimi ümummilli əhəmiyyət kəsb edən məsələni xüsusi qeyd etmək lazımdır.

Ulu Öndərin dediyi kimi, Novruz Bayramı dostluq, həmrəylik, mərhəmət və xeyirxahlıq, mehribanlıq və yüksək mənəviyyat bayramıdır. "Azərbaycan xalqının milli adət-ənənəsinə görə Novruz bayramında küsülülər barışmalı, qohumlar bir-birini ziyarət edib, bayram süfrələri açmalıdırlar. "Novruz bayramının bizə bəxş etdiyi ən gözəl nemət ondan ibarətdir ki, qədim zamanlardan bu bayramda insanlar kin-küdurəti unudur, küsülülər barışır, ziddiyyətlər aradan götürülür. Deməк, bu dostluq, həmrəylik, yüksək mənəviyyat bayramıdır" (https://www.adalet.az/az/posts/detail/heyder-eliyev-novruz-dostluq-hemreylik-yuksek meneviyyat-bayramidir-1647339942). Təbiət, dirçəliş, oyanış, ata-baba ruhlarını yad etmə bayramı sayılan Novruzun ölkəmizdə dövlət səviyyəsində qeyd edilməsi həm də ulu əcdadlarımızın xatirəsinə dərin ehtiramın əlamətidir. Bu tarixi keçmişimizi bu günümüzlə bağlamaq, onu qoruyaraq gələcəyə aparmaq deməkdir.

**Nəticə**

Beləliklə,təhlillərimizdən də məlum olduğu kimi Ulu Öndər Heydər Əliyev Azərbaycan, vətən, torpaq dövlətçilik, humanizm, azərbaycançılıq, birgəyaşayış və s. amillərlə yanaşı, milli dəyərlərimizə, folklorumuza, şifahi xalq ədəbiyyatımıza əsrlərin sınağından keçib gələn

adət-ənənələrimizə çox böyük önəm vermişdir. Vətən, xalq, dövlət və milli dəyər amili Ulu Öndər üçün əsas və vacib məsələlərdən olmuşdur. Milli dəyəri, əsrlərin süzgəcindən keçib gələn adət-ənənələri olmayan xalqın dövlətçiliyi də zəif olar. Məqalədən məlum oldu ki, Ulu Öndər Heydər Əliyev milli dəyərlərimizə hörmətlə yanaşmış, bütün xalqı bu dəyərlərə sahib çıxmağa, qorumağa səsləmişdir. Eləcə də, ata- babalarımızdan, əcdadlarımızdan bizlərə miras qalan milli dəyərlər sırasına daxil olan milli və dini bayramların xalq arasında yüksək səviyyədə keçirilməsini təmin etmiş, özüdə hər zaman xalqın arasında olmuşdur. Azərbaycan xalqının Ulu Öndəri Heydər Əliyev "sələflərimizin bizlərə miras qoyduqları adətləri unutmayın", - deyirdisə, bu kəlmənin özündə böyük bir hikmət vardır. Çünki dəyər kəlməsi özü də bizim milli kimliyimizin göstəricisidir. Dəyərlərimizə vaxtında sahib çıxaq ki, özümüzün olanı özgələşməyə imkan verməyək.

**Ədəbiyyat**

*Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin yeni-2001-ci il, yeni əsr və üçüncü minillik münasibətilə Azərbaycan xalqına müraciəti.* Bakı şəhəri, 29 dekabr 2002-ci il.

Əliyev. H. *Müstəqilliyimiz əbədidir. Çıxışlar, nitqlər, bəyanatlar, müsahibələr, məktublar, məruzələr, müraciətlər, fərmanlar.* (2010). (31-ci kitab). Azərnəşr.

Əliyev, Q. (2003). *Heydər Əliyev və milli mentalitet fəlsəfəsi.* Qismət.

Hüseynova, L. (2011). *Heydər Əliyev irsində Azərbaycan tarixi əsələləri. Müstəqillik dövrü.* Təhsil.

Quliyeva, X. (2021). *Ulu Öndər Heydər Əliyevin siyasətinin müdriklik gücü.* Kitabcapı.az.

Həbibbəyli, İ. *Heydər Əliyevin böyük ədəbiyyat siyasəti.* https://edebiyyat-qazeti.az/news/sience/10304-heyder-eliyevin-boyuk-edebiyyat-siyaseti

Mirqasımov, O. (2011, 29 aprel). *525-ci qəzet.*

https://qafqazinfo.az/news/detail/prezident-xalqa-muraciet-edecek-304732

Rzasoy, S. (2008). *Mifologiya və folklor: nəzəri-metodoloji kontekst.* Nurlan.

**https://www.azerbaijan-news.az/az/posts/detail/babamin-mezari-onunde-ureyimde-dediyim-sozleri-ola-bilsin-ki-ne-vaxtsa-dile-getireceyem-1642106926**

https://www.adalet.az/az/posts/detail/heyder-eliyev-novruz-dostluq-hemreylik-yuksek-meneviyyat-bayramidir-1647339942